| № | Xidmətin adı | Tikintiyə icazə verilməsi |
|---|---|---|
| 1 | Dövlət orqanı | Dövlət Şəhərsalma və Axitektura Komitəsi |
| 2 | Xidmətin məzmunu | Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq tikintiyə icazənin verilməsi |
| 3 | Xidmətin aid olduğu təsnifat | Şəhərsalma, arxitektura və tikinti |
| 4 | Xidməti həyata keçirən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi<br>Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi<br>Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi |
| 5 | Xidmətin icrasında iştirak edən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi<br>Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi<br>Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi<br>"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti<br>"Azərsu" Açıq Səhmdar Cəmiyyəti<br>"Azəriqaz" İstehsalat Birliyi |
| 6 | Xidmətin hüquqi əsası | -Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi"nin 75-ci maddəsi<br>-"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 4 sentyabr 2012-ci il tarixli 695 №-li Fərmanının 4.7-1-ci bəndi |
| 7 | Xidmətin həyata keçirilmə formaları | - Elektron müraciət və nəticənin elektron təqdim edilməsi<br>- Xidmət yerinə gəlməklə müraciət və nəticənin kağız formada təqdim olunması |
| 8 | Xidmətin həyata keçirilməsi və nəticəsi proseduru barədə məlumatlandırma forması | - Poçt xidməti vasitəsilə məlumatlandırma<br>- Şəxsi kabinet vasitəsilə məlumatlandırma<br>- Elektron poçt vasitəsilə məlumatlandırma |
| 9 | Xidmətin həyata keçirilməsinin nəticəsi | - Obyektin Tikintisinə İcazə<br>- Əlavə şərtlər nəzərdə tutulduğu hallarda tikintiyə icazə barədə Xüsusi Nişan |
| 10 | Xidmət istifadəçisi barədə məlumat | - Dövlət orqanları<br>- Fiziki şəxslər<br>- Hüquqi şəxslər<br>- Yerli özünüidarəetmə orqanları |
| 11 | Xidmətin həyata keçirilməsi müddəti, Dövlət rüsumu, Xidmət haqqı, Ödənişin hüquqi əsası: | |
| 11.1 | Müddət | - Layihəsinin ekspertizadan keçirilməsi tələb olunmayan tikinti obyektləri üzrə 15 iş günü |

| | | |
|---|---|---|
| | | - Layihəsinin ekspertizadan keçirilməsi tələb olunan tikinti obyektləri üzrə 1 ay (Şəhərsalma və Tikinti Məcəlləsinin 90.2-ci maddəsində ekspertiza müddətinin uzadılması üçün nəzərdə tutulan hallar istisna olmaqla) |
| 11.2 | Rüsum | Yoxdur |
| 11.3 | Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti | - Həftənin 1-5 günləri (kağız formada müraciətlər üçün)- 09:00- 18:00 (fasilə 13:00- 14:00)<br>- Elektron qaydada həftənin bütün günləri |
| 15 | Xidmətin göstərilmə yeri | - Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin inzibati binası |
| 16 | Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları | - Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11.3-cü maddəsinə uyğun olaraq tikilməsi nəzərdə tutulan obyekt baş plana zidd olarsa, tikilməsi nəzərdə tutulan obyektin ətraf mühitə zərərli təsir göstərmək və ya özünün bu cür təsirə məruz qalmaq təhlükəsi olarsa, tikilməsi nəzərdə tutulan obyekt infrastrukturun yaradılması, təhlükəsizliyin və ya sağlamlığın təmin olunması ilə əlaqədar dövlət və ya bələdiyyə vəsaitlərinin səmərəsiz istifadəsini tələb edərsə, tikilməsi nəzərdə tutulan obyekt ətraf mühitin, torpağın, mədəni irs obyektlərinin qorunması ilə bağlı maraqları, yaxud landşaftın təbii xüsusiyyətlərini pozarsa, tikilməsi nəzərdə tutulan obyekt su təsərrüfatı və ya təbiət hadisələrindən (daşqından) qorunmaya təhlükə yaradarsa, Məcəllənin 75-4-cü maddəsinə uyğun olaraq 10 gün ərzində tamlıq təmin olunmadıqda, Məcəllənin 75.7-ci maddəsinə uyğun olaraq tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğun olmaması barədə rəy olduqda, Məcəllənin 75.8 və 75.10-cu maddələrinə uyğun olaraq aidiyyəti qurumlardan daxil olmuş rəylər mənfi olduqda. |
| 17 | Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması | - Ərizə (Kağız formada)<br>- Tikinti layihəsi (Elektron (onlayn müraciət edildikdə) və ya kağız formada)<br>- Torpaq sahəsi üzərində tikinti aparılmasına səlahiyyət verən mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti (Elektron (onlayn müraciət edildikdə) və ya kağız formada)<br>- Sifarişçi hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti fiziki şəxs olduqda, şəxsiyyətini təsdiq edən sənədin surəti (Kağız formada) |
| 18 | Ödənilmə üsulları | Ödənişsizdir |
| 19 | Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar | Sifarişçi tikintiyə icazə almaq üçün Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinə ərizə ilə və ya elektron qaydada müraciət edir və tələb olunan sənədlər əlavə olunur və ya yükləyir. Tikintiyə dair ərizənin və tikinti layihəsinin təqdim edildiyi vaxtdan 3 iş günü, ekspertizadan keçirilməsi tələb olunmayan tikinti layihələrinə münasibətdə isə 2 iş günü ərzində sənədlərin tamlığını yoxlanılır. Sənədlər tam təqdim olunmadıqda, Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi onların tamamlanması üçün zəruri hərəkətlər barədə ərizəçiyə dərhal məlumat verir və bu məqsədlə 10 gün müddət təyin edir. Sənədlərin tamlığının təmin edilməməsinin |

| | | |
|---|---|---|
| | | hüquqi nəticələri ərizəçiyə izah olunur. Tikintiyə dair sənədlərin tamlığı təmin edildikdən sonra Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğun olub-olmaması barədə 5 iş günü müddətində rəy verilməsini təmin edir və tikinti layihəsi şəhərsalma sənədlərinə uyğunluğu barədə rəy müsbət olduğu təqdirdə Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan digər aidiyyəti qurumlara layihəsi ekspertizadan keçirilməsi tələb olunan obyektlərə münasibətdə 15 gün, layihəsi ekspertizadan keçirilməsi tələb olunmayan obyektlərə münasibətdə 5 gün müddətində rəy bildirilməsi üçün sorğu göndərilməsini təmin edir. Eyni zamanda, tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğu barədə rəy müsbət olduğu təqdirdə, Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi layihəsi ekspertizadan keçirilməsi tələb olunan tikintiyə icazə icraatı çərçivəsində tikinti layihələrini ekspertizadan keçirmək üçün ekspertiza müəssisəsinə göndərir.<br>Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi layihəsinin ekspertizadan keçirilməsi tələb olunmayan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla 15 iş günü müddətində, layihəsinin ekspertizadan keçirilməsi tələb olunan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla, 1 ay (bu Məcəllənin 90.2-ci maddəsində ekspertiza müddətinin uzadılması üçün nəzərdə tutulan hallar istisna olmaqla) müddətində baxır və tikintiyə icazə verilməsi və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir. |
| 20 | Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar | Sifarişçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 71-ci və 72-ci maddələrinə əsasən inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən inzibati qaydada və ya məhkəmə qaydasında şikayət verə bilər.<br>- Ərizə və ya şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73-cü və 74-cü maddələrinə uyğun olmalıdır. Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş qaydada 1 ay müddətində baxılır. |
| 21 | Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları | "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi<br>Avtomatlaşdırılmış Vergi İnformasiya sistemi |
| 22 | Xidmətin elektronlaşma səviyyəsi | Tam elektronlaşdırılıb |
| 23 | Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi | Tam avtomatlaşdırlıb |
| 24 | Xidmətin elektron ünvanı | https://e-tikinti.gov.az/ |